# Erməni diasporu Paşinyanı siyasi alverə təhrik edir



**Hayastanla Azərbaycan arasında 30 il davam edən keçmiş Qarabağ münaqişəsinə son qoyulsa da, ölkəmiz ərazi bütövlüyünü, suverenliyini bərpa etsə də, hələ də tərəflər arasında sülh müqaviləsinin imzalanmaması regionda sabitliyin təmin olunmasına rəvac vermir. Bunun da yeganə səbəbi cəmi 44 günə Azərbaycan qarşısında diz çöküb savaşın dayandırılmasını xahiş edən Hayastanın cəfəng iddiaları, bəhanələri və hərbi təxribatları idi.**

Son günlərdə erməni siyasi ekspertlərin verdiyi açıqlamalar göstərir ki, Hayastanın rifahı, ümumiyyətlə, xalq olaraq varlıqları Azərbaycanla normal münasibətlərdən keçir. Buna görə də, düşdükləri ağır durumdan xilas olmağın yollarını axtarırlar. Çünki artıq xaricdəki diaspor da onların imdadına çata bilmir.

Politoloq Stepan Movsisyan deyib ki, daha əvvəlki zaman keçib, köhnə dünyanın nizamı çoxdan dağılıb. İndi regionda mühüm hadisələr baş verir. Deməli, Azərbaycanın iradəsi regionda mühüm rol oynayır. Yeni dünya düzəninin formalaşması zamanı bütün münaqişələr həll edilməlidir.

Ancaq revanşist qüvvələr bu prosesin baş tutmaması üçün məkrli niyyətlərini gizlətmədən nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Onlar anlayırlar ki, sülh müqaviləsi bağlandıqdan sonra bir daha Azərbaycana ərazi iddiaları irəli sürə bilməyəcəklər.

Son günlər Paşinyanı siyasi alverə təhrik edənlər isə diaspordakı erməni icmasının üzvləridir. Belə ki, Fransadakı erməni icması birmənalı şəkildə sülh müqaviləsinə qarşıdır. Marseldəki Abovyan kollecinin rəhbəri, yazıçı Karen Xurşudyan deyib ki, İrəvanla Bakı arasında real sülh müqaviləsinə nail olmağın yeganə yolu Hayastanın hərbi cəhətdən güclənməsidir: "Heç bir avropalı Hayastanın sərhədlərini tam müdafiə etməyə gəlməyəcək, heç bir avropalı Azərbaycanı Haaqa Məhkəməsinin qərarını yerinə yetirməyə məcbur etməyəcək. Əsl sülh müqaviləsi ancaq hərbi paritet şəraitində imzalana bilər".

Xurşudyan qeyd edib ki, Fransa Hayastanın hərbi baxımdan gücləndirilməsinin vacibliyini çox yaxşı anlayır. Hayastan öz xarici siyasət əlaqələrini şaxələndirməyi bacarmalıdır, özü üçün lazımi fayda əldə etməlidir. Bu yolda xarici oyunçularla ümumi maraqların yaradılması vacibdir. Əks halda, başqaları həmişə İrəvandan öz məqsədləri üçün istifadə edəcəklər.

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xunta və onları dəstəkləyən diaspor, erməni xalqını növbəti dəfə fəlakətə sürükləyir. Unutmasınlar ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövrünü unutmayıb.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azərbaycan.-2023.- 30 dekabr (№ 287).- S.12.